**Eminov S.M.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2019.60.133-161**

# İnsan alveri cinayətləri qeyri-leqal miqrantların əməyinin istismarı kontekstində

**Xülasə**: İnsan alveri əməlləri kriminoloji baxımdan cinayətkar fəaliyyətin yüksək gəlir gətirən və təhlükəli növlərindən biri kimi qiymətləndirilirsə, sosial planda köləliyin müasir forması kimi nəzərdən keçirilir. Müasir dünyanın əksər ölkələri üçün əməyin istismarı (məcburi əmək) şəklində həyata keçirilən insan alveri əməllərinin sayında artım tempinin olması xarakterikdir. Beynəlxalq Əmək Təşkilatının məlumatına əsasən, 2005-ci ildə dünyada təxminən 13 milyon insan məcburi əməyə cəlb edilmişdir ki, bunun 64 faizi iqtisadiyyatın xüsusi sektoruna, 20 faizi dövlət və hərbi sektora aid olmuşdur. Məcburi əməyə cəlb edilənlərin əksəriyyətini (56%) qadınlar təşkil edir. 2012-ci ildə bu rəqəmlər artıq demək olar ki, 2 dəfə artaraq, məcburi əməyə cəlb edilənlərin sayı təxminən 21 milyona çatmışdır. Onların 14 milyon nəfəri (68 %) iqtisadiyyatın xüsusi sektorunda, 2,2 milyonu dövlət sektorunda istismara məruz qalmışdır. 5,5 milyon nəfəri (26%) isə 18 yaşa çatmayan şəxslər olmuşdur. Birləmiş Millətlər Təşkilatının 2014-cü il hesabatına görə, hər il üçdən biri uşaqlar olmaqla, 20 milyondan artıq şəxs insan alverinin qurbanına çevrilir və onların 40 faizi məcburi əməyə məruz qalır. Beynəlxalq təşkilatların hesabatlarına əsasən, dünyada insan alveri ilə bağlı hər il müəyyən olunan 56 minə yaxın qurbandan 51%-ni qadınlar, 21%-ni kişilər, 28%-ni uşaqlar təşkil edir. Zərərçəkmişlərin 58%-i cinayətkar qrup və təşkilatlar tərəfindən 570-dən artıq marşrut üzərindən başqa dövlətlərə aparılaraq istismar olunur. Problemin daha da dərinləşməsində dünyanın əksər ölkələrində baş verən maliyyə böhranı, silahlı münaqişələrin coğrafiyasının böyüməsi, həmin

♦ **Eminov Seyid Mahir oğlu** - AMEA Hüquq və İnsan Haqları institutunun doktorantı (Azərbaycan). E-mail: eminovseyd@mail.ru

səbəblərdən ucuz işçi qüvvəsinə olan tələbatın artması və tənzimlənməyən miqrasiya axınının ortaya çıxması xüsusi rol oynayır. Hazırda dünyada müasir köləliyin qurbanı olan 40,3 milyon insanın olduğu, onlardan 16 milyonunun ev qulluğu, tikinti sektoru, kənd təsərrüfatı sahələrində məcburi əməyə məruz qaldığı qeyd edilir.

**Açar sözlər**: insan alveri; köləlik; muzdlu; məcburi əmək; cinayətin qurbanı; əməyin istismarı; qanunsuz miqrasiya.

Əməyin istismarı məqsədi ilə həyata keçirilən insan alveri əməlləri ölkənin sosial-iqtisadi vəziyyəti və çoxrafi mövqeyi amilləri şəraitində xüsusi aktallıq kəsb edir. Məsələn, vaxtı ilə keçmiş Sovet İttifaqı üçün əməyin istismarı, məcburi əmək, insan alveri ifadələrinin sosializmə yad olan ünsürlər kimi təqdim edilməsi xarakterik olsa da, onun varisi olan Rusiyada, BƏT-nin 2012-ci il üçün təqdim etdiyi məlumata əsasən, insan alveri qurbanlarının sayı 1,6 milyon nəfərə çatmışdır [12]. Çünki Sovet İttifaqı dağılandan sonra ilk vaxtlar Rusiyada sosial-iqtisadi vəziyyət xeyli dərəcədə pisləşmiş, əhali arasında təbəqələşmə, yoxsulluq, işsizlik kəskin surətdə artmışdır ki, bütün bunlar kriminal ünsürlərün əhalinin müəyyən qrup hissəsini insan alveri əməllərinin dairəsinə cəlb etməsi üçün münbit zəmin yaratmışdır. Korrupsiyanın genişlənməsi, xaricilərin ucuz və hüquqsuz əməyinin istismarına əsaslanan "miqrantdan asılı" iqtisadiyyatın yaradılması qonşu ölkələrdən, ilk növbədə Mərkəzi Asiya regionu dövlətlərindən insan alveri qurbanlarının gətirilməsi fəaliyyətini stimullaşdırmışdır. Rusiyanın Asiya ilə Avropa ölkələri arasında insan qurbanlarının trafikində ən böyük tranzit dəhlizinə malik olan dövlət olduğu da unudulmamalıdır. Nəhayət, əməyin istismarından ötrü törədilən insan alveri əməlləri keçmiş SSRİ-nin tərkibində olmuş ölkələrin əhalisinin xeyli hissəsini əhatə edən qanunsuz əmək miqrasiyası ilə sıx surətdə bağlıdır.

İnsan alveri və köləlik əməkçi miqrantların problemi ilə sıx surətdə bağlıdır. Çünki əhalinin həssas qrupuna aid olan əməkçi miqrantların çoxu gəldikləri

ölkələrdə rəsmi statusu olmayan şəxslər olur. Miqrantların bir hissəsi gəldikləri yerə daimi yaşamaq, bir hissəsi əmək fəaliyyəti ilə məşğul olmaq, bir hissəsi oxumaq, bir hissəsi qaçqın statusu əldə etmək üçün gəlir. Miqrantı yalnız qəbul edən və ya yalnız ixraç edən ölkələr ilə yanaşı, miqrantı həm qəbul edən, həm də ixrac edən ölkələr də vardır. Belə ki, Avropanın inkişaf etmiş dövlətləri, ABŞ, Kanada, Avstraliya daha çox miqrant qəbul edən ölkələr sayılır. Məsələn, mətbuatda gedən yazılara inansaq, bəlli olacaq ki, immiqrantlar şəhəri olan Londonun 41 faizini Böyük Britaniyadan kənarda dünyaya gələn insanlar təşkil edir [5].

Çin, Hindistan, Banqladeş, Türkiyə, Vyetnam daha çox miqrant ixrac edən ölkələr sayılır. Məlum hadisələrdən sonra ərəb ölkələri də bu siyahıya daxil olmuşdur. Miqrant qəbulu və ixraçında balansı qoruyub saxlayan ölkələrə isə, əsas etibarı ilə, Şərqi Avropa ölkələri, MDB-nin bəzi dövlətləri aiddir. Hazırda dünyada xaricdə işləyən və təhsil alanların sayında liderlik Çinə, ondan sonra Rusiyaya məxsusdur. Rusiya həmçinin coxrafi mövqeyinə görə Asiya ilə Avropa arasında tranzit miqrasiyasının dəhlizi rolunda çıxış edir. Ölkənin ərazisi praktik olaraq cənub-şərqi Asiya, Əfqanıstan, Pakistan, Çin və s. dövlətlərdən Avropaya miqrant daşınmasının yeganə tranzit regionu sayılır. Rusiyanın Uzaq Şərq regionu Mərkəzi Asiya ölkələri ilə birlikdə Şərqi Avropaya, şimal-qərb regionu isə Belarus, Ukrayana və Moldova ilə birlikdə Qərbi Avropaya miqrant axınında tranzit məntəqəsi rolunda çıxış edir. Təxmini hesablamalara görə, Rusiyada qeyri-qanuni tranzit miqrantlarının sayı 300 min nəfərə çatır və onların əksəriyyətini Əfqanıstan, Banqladeş, Vyetnam, Hindistan, Pakistan, Çin, Türkiyə, Cənubi Qafqaz regionu dövlətlərinin vətəndaşları təşkil edir. Tranzit miqrantlar Rusiyadan dəhliz kimi, əsasən, Avropa İttifaqı ölkələrinə və ABŞ-da daxil olmaq üçün istifadə edirlər. Bir nəfər tranzit miqrantın Rusiyadan həmin ölkələrə daşınması təxminən 7000 ABŞ dollarına başa gəlir [13].

Bu yerdə qeyd etməyi vacib sayırıq ki, beynəlxalq hüquq hər bir vətəndaşın dövlət sərhədinin buraxılış məntəqələrindən keçərək sərbəst surətdə ölkədən getmək və ölkəyə gəlmək hüququna malik olmasını nəzərdə tutur. Vətəndaş müəyyən hallar istisna olmaqla (məsələn, həbs oluması, şərti məhkum edilməsi və s.) ölkədən getmək və ölkəyə gəlmək hüququndan məhrum edilə bilməz. Vətəndaşın ölkədən getmək hüququ onun pasportu və ya digər sərhədkeçmə sənədləri əsasında həyata keçirilir, viza tələb olunduğu halda viza almalıdır. Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 3.0.16-cı maddəsinə əsasən, viza – əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin dövlət sərhədinin buraxılış məntəqələrindən müəyyən olunmuş qaydada keçməklə Azərbaycan Respublikasına gəlməsinə və Azərbaycan Respublikasından getməsinə, vizada göstərilmiş müddət ərzində ölkədə müvəqqəti olmasına hüquq verən rəsmi sənəd sayılır [4].

Ölkə sərhəddini qanunsuz keçən şəxslər ilə yanaşı, gəldiyi ölkədə qanunla müəyyən edilmiş qaydada qeydiyyata düşməyən şəxslər də qeyri-leqal miqrant sayılır. Bu baxımdan qanunsuz miqrantlara aşağıdakı şəxslər qrupu aid edilir: 1) dövlət sərhəddini qanunsuz yolla keçənlər; 2) dövlət sərhəddini qanuni əsaslar üzrə keçən, lakin polis və ya digər müvafiq dövlət orqanında qeydiyyata düşməyən, yaxud viza müddəti bitəndən sonra onu artırmayan şəxslər; 3) sənəddə göstərdiyi fəaliyyət üzrə deyil, başqa bir fəaliyyət ilə məşğul olan şəxslər (məsələn, təhsil almaq adı ilə gəlsə də, əslində təhsil almayan, əmək fəaliyyəti ilə məşğul olan şəxslər) [9, s. 25].

Onu da qeyd edək ki, əmək miqrasiyası fiziki şəxsin haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olması üçün qanuni əsaslarla bir ölkədən başqa ölkəyə miqrasiya etməklə yaşayış yerini dəyişməsini, əməkçi miqrant isə haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün qanuni əsaslarla bir ölkədən başqa ölkəyə miqrasiya edən fiziki şəxsi nəzərdə tutur. Yuxarıda göstərdiyimiz şəxslər qrupu qanunsuz miqrasiyanın təsiri altına düşən şəxslər sayılır. Hüquq nəzəriyyəsi və təcrübəsində qanunsuz miqrasiyanın terminoloji ifadəsi ilə bağlı birmənalı mövqe

olmasa da, əvvəlki ədəbiyyatlarda daha çox "qeyri-leqal miqrasiya" ifadəsindən istifadə olunduğunu müəyyən edirik. Sosialist rejiminin dağılması ilə keçmiş SSRİ məkanına daxil olan bəzi ölkələrdə sosial-iqtisadi vəziyyətin ağırlığı və əksər müstəqil dövlətlərin vətəndaşlarının viza rejimi olmadan bir-birlərinin ərazilərinə daxil ola bilmələri əmək fəaliyyəti ilə məşğul olmaq niyyəti ilə gedib-gələnlərin sayında artımın baş verməsinə gətirib çıxarmışdır. Ona görə də miqrant axınının çox olduğu Rusiyada və digər postsovet məkanı ölkələrində "qeyri-leqal miqrasiya" deyil, daha çox "qanunsuz miqrasiya", "sənədləşdirilməmiş miqrasiya" terminlərindən istifadə olunmağa başlamışdır. Miqrasiya məsələləri üzrə beynəlxalq təşkilat əməkçi miqrantların əksəriyyətinin iş icazəsinin olmadığını nəzərə alaraq, "qanunsuz miqrasiya", "sənədləşdirilməmiş miqrasiya" ifadələrinin istifadə olunması ideyasını bəyənmiş və bu terminlər artıq ayrı-ayrı ölkələrin normativ aktlarına daxil edilmişdir.

Qanunsuz əmək miqrasiyanın 3 növü fərqləndirilir: 1) ölkənin ərazisinə qanunsuz daxil olma; 2) ölkənin ərazisində qanunsuz olma; 3) ölkədə əmək fəaliyyəti ilə qanuni əsas olmadan məşğul olma [7, s. 82].

Ölkə ərazisinə qanunsuz daxil olma yuxarıda göstərdiyimiz sənəd və icazə olmadan başqa bir dövlətin sərhədini qeyri-qanini yolla keçərək, onun ərazisinə daxil olmanı nəzərdə tutur. Son illərdə münaqişə zonalarından, xüsusən, İraq, Suriya və digər ərəb ölkələrindən miqrant axınının əksəriyyəti buna tipik nümunədir. Lakin miqranların müəyyən hissəsi ölkə ərazisinə qanuni qaydada daxil olsa da, sonradan ya viza müddətini artırmayaraq, ya icazə sənədini saxtalaşdıraraq, ya da tələb olunan digər zəruri prosedurları keçməyərək burada qanunsuz qalmaqda davam edirlər. Halbuki qanuni əsaslarla başqa bir ölkənin ərazisində olan əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin də həmin ölkə ərazisində müəyyən müddət ərzində qalmaq hüququ vardır və bu müddətlər hər bir ölkənin milli qanunvericiliyi və ya verilmiş vizaya uyğun müəyyən edilir.

Məsələn, Azərbaycan Respublikasının 17 oktyabr 2014-cü il tarixli Miqrasiya Məcəlləsinin 20-ci maddəsinə əsasən, viza əsasında Azərbaycan Respublikasına gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqəti olma müddəti vizada göstərilən qalma müddətindən, viza tələb olunmayan qaydada Azərbaycan Respublikasına gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin isə ölkədə müvəqqəti olma müddəti, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallar istisna olmaqla, 90 gündən artıq ola bilməz. Bu müddət bitənədək əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqəti olma müddəti uzadılmamışdırsa, onlara müvəqqəti yaşamaq üçün icazə verilməmişdirsə, habelə onlardan müvəqqəti olma müddətinin uzadılması və ya müvəqqəti yaşama icazəsinin verilməsi üçün ərizə qəbul edilməmişdirsə, onlar Azərbaycan Respublikasının ərazisini tərk etməlidirlər.

Əlbəttə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkə ərazisində müvəqqəti olma müddətinin uzadıldığı hallar da mövcuddur. Məsələn, milli qanunvericiliyimizdə həmin hallara aşağıdakılar aid edilmişdir: 1) əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində təcili müalicə olunmasına zərurətin yaranması; 2) əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında yaşayan yaxın qohumlarının ağır xəstələnməsi və ya vəfat etməsi; 3) xidməti zərurətlə əlaqədar Azərbaycan Respublikasına gəlmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən nəzərdə tutulmuş işlərin başa çatdırılmadığına dair həmin şəxsləri ölkəyə dəvət etmiş təşkilat tərəfindən əsaslandırılmış vəsatətin verilməsi; 4) əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin atasının, anasının, ərinin (arvadının), övladının, qardaşının, bacısının Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması və s.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər başqa bir dövlətin ərazisində müvəqqəti yaşamaq ilə yanaşı, haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq

istədikdə müvəqqəti yaşamaq üçün icazə ilə yanaşı, iş icazəsi də almalıdırlar. Qanunvericilikdə iş icazəsi ilə yanaşı, əmək vizası anlayışı da vardır. Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 51-ci maddəsinə əsasən, iş icazəsi əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmalarına icazə verən rəsmi sənəddir. İş icazəsinin verilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən əmək miqrasiyası kvotası çərçivəsində həyata keçirilir. Kvota yerli əmək ehtiyatlarından səmərəli istifadə edilməsi və əmək miqrasiyası proseslərinin tənzimlənməsi sahəsindəki işlərin effektivliyinin artırılması məqsədi ilə tətbiq edilir. Kvota daxili əmək bazarının vəziyyəti, işçi qüvvəsinə tələbat, iş yerinin tələblərinə cavab verən peşə hazırlığına və ixtisasa malik Azərbaycan Respublikası vətəndaşının iddia etmədiyi boş iş yerlərinin mövcudluğu, məşğulluq xidməti orqanlarının işəgötürənlərin işçi qüvvəsinə olan ehtiyaclarını yerli əmək ehtiyatları hesabına təmin etmək imkanı, habelə yüksək ixtisaslı əcnəbi mütəxəssislərin cəlb edilməsi zəruriliyi nəzərə alınmaqla müəyyən edilir. Əmək vizası isə Azərbaycan Respublikasında haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq niyyətində olan və bunun üçün Azərbaycan Respublikasının dövlət orqanlarının, Azərbaycan Respublikasında fəaliyyət göstərən hüquqi şəxslərin və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin, habelə xarici hüquqi şəxslərin filial və nümayəndəliklərinin işəgötürən tərəf qismində vəsatəti əsasında gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilir. Əmək vizasında ölkədə qalma müddəti 90 günədək müəyyən edilir.

Nəzəriyyə və təcrübədə “tənzim olunmayan miqrasiya”, “sənədləşdirilməmiş miqrasiya”, “nəzərə alınmamış miqrasiya”, “miqrantların qaçaqmalçılığı”, “miqrantların qanunsuz daşınması” və s. terminlərdən istifadə edilməyə rast gəlinir. Şübhəsiz, bütün bu terminlər insan alveri ilə bağlı olan anlayışlardır, lakin hər bir halda qanunsuz miqrasiya və ya miqrantların qanunsuz daşınması

əməllərinin insan alveri ilə eyni olmadığını nəzərə almaq lazımdır. Ədəbiyyatda onların fərqli cəhətləri kimi aşağıdakılar qeyd olunmuşdur:

1) razılaşma əlamətinə görə. Belə ki, miqrantların qanunsuz daşınması zamanı onlar çox zaman özlərinə qarşı təhlükəli, hətta ləyaqəti alçaldan hərəkətlərin edilməsinin mümkünlüyü haqqında ya məlumatlı olurlar, ya da bu barədə əvvəlcədən xəbərdar edilirlər. Bununla belə, miqrantlar təyinat məntəqəsinə çatdırılmaq üçün həmin şərtlər ilə razılaşırlar. İnsan alveri əməlləri zamanı isə miqrantlar bu cür şərtlər barədə ya əvvləcədən məlumatlı olmur, ya da məlumatlı olsalar belə, buna razılıq vermələri insan alveri cinayətlərini törədənlərin məcburi, amansız rəftar, aldatma ilə müşayiət olunan əməlləri nəticəsində öz əhəmiyyətini itirir;

2) istismarın elementi əlamətinə görə. Miqrantların qanunsuz daşınması onların təyinat məntəqəsinə çatdığı andan başa çatırsa, insan alveri əməlləri gəlir əldə edilməsi məqsədi ilə qurbanların bu və ya digər şəkildə daimi istismarını nəzərdə tutur;

3) maliyyə mənfəətinin mənbəyinə görə. Miqrant "qaçaqmalçılığını" həyata keçirənlər zəhmət haqlarını əvvəlcədən, onları təyinat məntəqəsinə (ölkəsinə) çatdırmazdan əvvəl alırlar, insan alverində isə gəlirin əldə olunması son istismara hesablanır;

4) əməlin hüquqi baxımdan növünə görə. Miqrantların qanunsuz daşınması bütün hallarda transmilli sayılırsa, insan alveri əməlləri həmişə belə olmaya bilər [9, s. 16].

Qanunsuz miqrasiya ilə insan alveri əməlləri arasında sıx əlaqə mövcuddur. Bu əlaqənin əsasında qeyri-leqal miqrantların gəldikləri ölkələrdə cinsi və ya əmək istismarına məruz qalma risqinin həddən artıq yüksək olması ehtimalı dayanır. Bu və digər ictimai təhlükəli nəticələri nəzərə alınaraq, qanunsuz miqrasiyanın təşkili üstündə cinayət məsuliyyəti müəyyən olunmuşdur. Belə ki, Azərbaycan

Respublikasının 03 dekabr 2013-cü il tarixli 833-IVQD nömrəli Qanunu ilə ölkəmizin CM-nə aşağıdakı məzmunda yeni 318-1-ci maddə daxil edilmişdir:

“Maddə 318-1. Qanunsuz miqrasiyanın təşkili

318-1.1. Əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasına qanunsuz gəlməsini, Azərbaycan Respublikası ərazisində qanunsuz qalmasını, Azərbaycan Respublikası ərazisindən qanunsuz tranzit keçidini və ya hər hansı şəxsin Azərbaycan Respublikasından qanunsuz getməsini təşkil etmə -

dörd min manatdan səkkiz min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

318-1.2. Eyni əməllər:

318-1.2.1. mütəşəkkil dəstə tərəfindən törədildikdə;

318-1.2.2. vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə;

318-1.2.3. təkrar törədildikdə;

318-1.2.4. insan həyatı üçün təhlükəli üsulla törədildikdə -

iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır” [2].

Milli hüquq ədəbiyyatımızda göstərilmişdir ki, CM-nin 318-1-ci maddəsində əks olunan cinayətin ictimai təhlükəliliyi əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin qanunsuz olaraq Azərbaycan Respublikasına gəlməsi, Azərbaycan Respublikası ərazisində qalması, Azərbaycan Respublikası ərazisindən üçüncü ölkəyə keçidi dövlətimizin sərhədlərini pozmaqla yanaşı, milli təhlükəsizliyi təhdid edən fəaliyyətin (respublikamızın ərazisində terrorçuluq əməllərinin törədilməsi, narkotik vasitələrin və psixotrop maddələrin, odlu silahların, döyüş sürsatlarının qanunsuz dövriyyəsinin təşkili və s.) həyata keçirilməsinə şərait yaratmasında ifadə olunur [3, s. 1010]. Biz bu mövqe ilə razıyıq, eyni zamanda, qeyd edilən

cinayətlərin siyahısında insan alveri, məcburi əmək kimi cinayətlərin də qeyd olunmasının tərəfdarıyıq. Belə ki, oxşar cinayət tərkibi Rusiya Federasiyasının CM-nə 28 dekabr 2004-cü il tarixdə daxil edilmişdir. 2012-ci ildən etibarən ölkədə həmin cinayətlərin statistik hesabatı aparılır və məlum olmuşdur ki, insan alveri sahəsində törədilən cinayətlərin 1/4 hissəsindən çoxu (26-27%) məhz qanunsuz miqrasiyanın təşkili ilə müşayiət olunmuşdur [8, s. 29].

Qeyd edək ki, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsi tərəfindən ölkəmizdə insan alveri ilə bağlı olan cinayətlərin ümumi statistikası aparılılır. Burada insan alveri, məcburi əmək, insan alveri məqsədi ilə sənədlərlə qanunsuz hərəkətlər ilə yanaşı, insan alveri cinayəti ilə əlaqəli olan digər cinayətlərin, o cümlədən, fahişəliyə cəlb etmə, əxlaqsızlıq yuvaları saxlama və sair cnayətlər ilə mübarizə işinin vəziyyətinə dair məlumatlar da öz əksini tapır. Aşağıda həmin idarənin 2005-2018-ci illər üçün tərtib etdiyi statistik məlumatı təqdim edirik:

| Respublika üzrə | | İllər üzrə | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
| Cinayət faktlarının cəmi | | 162 | 215 | 283 | 403 | 340 | 212 | 169 | 222 | 228 | 272 | 317 | 314 | 295 | 285 |
| Cinayətlərin növü | AR CM-nin maddələri | | | | | | | | | | | | | | |
| İnsan alveri | m. 144-1 | 1 | 29 | 72 | 79 | 79 | 67 | 67 | 89 | 78 | 98 | 109 | 141 | 142 | 144 |
| Məcburi əmək | m. 144-2 | - | - | - | 1 | 3 | 1 | 2 | 2 | 3 | 4 | 7 | 6 | 6 | 4 |
| İnsan alveri məqsədilə | m. 144-3 | - | - | - | - | - | - | - | - | - | 3 | 11 | 19 | 26 | 35 |

| | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| sənədlərlə qanunsuz hərəkətlər | | | | | | | | | | | | | | | |
| Fahişəliyə cəlb etmə | m. 243 | 54 | 57 | 49 | 116 | 92 | 62 | 43 | 45 | 69 | 76 | 57 | 41 | 49 | 60 |
| Yetkinlik yaşına çatmayanı fahişəliyə cəlb etmə | m. 171 | 4 | 7 | 8 | 10 | 5 | 2 | 2 | 2 | 3 | 2 | 1 | 4 | 7 | 5 |
| Uşaq pornoqrafiyasının dövriyyəsi | m. 171-1 | - | - | - | - | - | - | - | - | - | - | - | - | 1 | - |
| Əxlaqsızlıq yuvaları saxlama | m. 244 | 93 | 112 | 150 | 180 | 148 | 73 | 51 | 75 | 66 | 82 | 123 | 99 | 58 | 24 |
| Seksual xarakterli hərəkətlərə məcbur etmə | m. 151 | 5 | 5 | 1 | 10 | 3 | 2 | 2 | 4 | 6 | 5 | 6 | 2 | 3 | 4 |
| İnsan orqanlarının və ya toxumaların alqı-satqısı və onların transplantasiya məqsədi ilə götürülməsinə məcbur etmə | m. 137 | - | - | - | - | 1 | - | 1 | - | - | 1 | - | - | - | 1 |
| Pornoqrafik materialları və ya əşyaları qanunsuz yayma | m. 242 | 5 | 5 | 3 | 7 | 9 | 5 | 1 | 5 | 3 | 1 | 3 | 2 | 3 | 8 |
| Köləlik | m. 106 | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| Özgənin uşağını dəyişdirmə | m. 172 | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| Qanunsuz olaraq övladlığa götürmə | m. 174 | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| İnsan alverindən zərər çəkmiş şəxs haqqında konfidensial məlumatları yayma | m. 316-1 | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| Cinayət törətmiş şəxslər | Cəmi:2525 | 153 | 207 | 300 | 349 | 289 | 137 | 97 | 145 | 124 | 149 | 171 | 162 | 121 | 101 |

| | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| (məhkəmə məsuliyyəti üzrə) | | | | | | | | | | | | | | | |
| o cümlədən insan alverçiləri | Cəmi:543 | 1 | 23 | 93 | 91 | 76 | 39 | 20 | 22 | 17 | 26 | 32 | 36 | 33 | 34 |
| İnsan alveri qurbanları | Cəmi:885 | 1 | 86 | 101 | 78 | 91 | 34 | 29 | 53 | 56 | 54 | 63 | 70 | 71 | 98 |

Göründüyü kimi, statistik məkumatı əks etdirən cədvəldə qanunsuz miqrasiyanın təşkili cinayəti yoxdur. Azərbaycan insan alveri və məcburi əmək faktları baxımından, əsasən, mənşə, bəzi hallarda isə təyinat ölkəsi sayılır. Bunu konkret faktlar ilə şərh etməyə çalışaq. Respublika Daxili İşlər Nazirliyinin İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsi tərəfindən 2011-ci ildə beynəlxalq təşkilatlardan ayrı-ayrı şirkətlərdə çalışan Çin, Türkiyə və Əfqanıstan vətəndaşlarının məcburi əməyə cəlb edilməsi ilə bağlı daxil olmuş müraciətlərin araşdırılması zamanı şikayətlərin, əsasən, əmək haqlarının gecikdirilməsi, tam ödənilməməsi və digər əmək mübahisələri ilə əlaqədar olduğu müəyyənləşmişdir. 2011-ci ildə insanların məcburi əməyə cəlb edilməsi ilə bağlı 1, 2012-ci ildə 2 cinayət faktı qeydə alınmışdır. Dövlət Miqrasiya Xidmətinin 484 obyektdə apardığı yoxlamalarla iki mindən çox əcnəbinin və vətəndaşlığı olmayan şəxsin işə cəlb edilməsi qaydalarını pozmuş 235 hüquqi və fiziki şəxs barəsində müvafiq tədbirlər görülmüşdür. Müxtəlif şirkətlərdə çalışan Türkiyə, Türkmənistan və Özbəkistan vətəndaşlarının məcburi əməyə cəlb edilməsi ilə bağlı daxil olmuş müraciətlərin araşdırılması zamanı şikayətlərin, əsasən, əmək haqlarının gecikdirilməsi, tam ödənilməməsi və digər əmək mübahisələri ilə əlaqədar olduğu müəyyənləşmişdir. Vətəndaşların və əcnəbilərin kənd təsərrüfatında məcburi əməyə cəlb edilməsi ilə əlaqədar alınmış siqnallar üzrə Şəmkir, Kürdəmir, Quba, Şəki, Qəbələ, İsmayıllı, Zaqatala, Salyan, Bərdə, Biləsuvar rayonlarında aparılmış monitorinqlərlə həmin cinayətin qurbanları müəyyən edilməmişdir. 2014-cü ildə Daxili İşlər, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri və Dövlət Miqrasiya Xidməti tərəfindən paytaxtın və respublikanın ayrı-ayrı rayonlarında yerləşən

tikinti sahələrində və istehsal müəssisələrində əmək miqrasiyasına nəzarət çərçivəsində keçirilmiş tədbirlərlə 4 məcburi əmək cinayəti, 164 inzibati xəta aşkarlanmış, qanunsuz əmək fəaliyyəti ilə məşğul olan 2543 əcnəbi deportasiya edilmişdir. Müəyyən edilmiş 54 qurbandan (51 qadın, 3 kişi) 37-si Türkiyə Respublikasına, 8-i Rusiya Federasiyasına, 6-sı Birləşmiş Ərəb Əmirliklərinə aparılmış, 3 əcnəbi ölkə daxilində istismara məruz qalmışdır (Rusiya Federasiyasının iki, Çin Xalq Respublikasının bir vətəndaşı). Qurbanların 94%-i xarici dövlətlərə aparılmış, 6%-i isə ölkə daxilində istismara məruz qalmışdır. 2015-ci ildə 8 məcburi əmək cinayəti müəyyən olunmuş, 63 qurbandan (57 qadın, 6 kişi) 38-i Türkiyə Respublikasına, 8-i Birləşmiş Ərəb Əmirliklərinə, 3-ü Rusiya Federasiyasına aparılmış, 14 nəfər, o cümlədən 7 əcnəbi ölkə daxilində istismara məruz qalmışdır (5 Özbəkistan, 1 Türkmənistan və 1 Ukrayna vətəndaşı). 2016-cı ildə Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı Nümayəndəliyinin müraciətləri əsasında aparılmış araşdırmalarla əcnəbilərin məcburi əməyə cəlb edilməsi faktı aşkarlanmasa da, müvafiq qanunvericiliyin tələblərini pozmuş 90 nəfər barəsində inzibati tənbeh tədbirləri görülmüşdür. Miqrantların məcburi əməyə cəlb olunmasının qarşısının alınmasında ölkədə yaşama və olma qaydalarını pozan 5.523 əcnəbinin ötən il respublikanın hüdudlarından kənara çıxarılmasının da böyük əhəmiyyəti olmuşdur. 2017-ci ildə respublika üzrə 6 məcburi əmək faktı aşkarlanmış, 5 qurbanın, o cümlədən 2 əcnəbinin ölkə daxilində ev qulluğunda və kənd təsərrüfatında istismar edildiyi müəyyən edilmişdir. Məcburi əməyin profilaktikası işində mühüm əhəmiyyət kəsb edən tədbirlərdən biri ölkədə olma və yaşama qaydalarını pozan 20.285 əcnəbinin müəyyən edilərək inzibati məsuliyyətə cəlb edilməsi, o cümlədən 6.330 nəfərin deportasiyası olmuşdur [1].

Beləliklə, respublikamızda məcburi əməyin, o cümlədən ölkədə olma və yaşama qaydalarını pozulması əməllərinin qarşısının alınması, qurbanların müəyyən edilməsi üzrə həyata keçirilən məqsədyönlü fəaliyyət miqrantların istismarının, onlardan insan alveri məqsədi ilə istifadə edilməsinin ölkəmizdə geniş

yayılmasını istisna etmişdir. Lakin qanunsuz miqrasiya ilə insan alveri əməlləri arsında əlaqənin korrelyasiya xarakterli olduğunu nəzərə alsaq, yuxarıda əksini tapan cədvəldə bu cinayətin də qeyd edilməsini düzgün sayardıq. Digər tərəfdən, statistik hesabatı əks etdirən həmin cədvəldə törədilən cinayətlərin konkret sayı ilə yanaşı, onların insan alveri cinayətləri ilə müqayisədə faiz nisbətinin, habelə insan alveri ilə müşayiət olunan digər cinayətlərin öz əksini tapmasını məqsədəuyğun sayırıq. Bu, bəhs edilən cinayətlərin ümumi mənzərəsində hər bir ictimai təhlükəli əməlin hansı xüsusi çəkiyə malik olduğunu, cinayəti törədən şəxslərin ümumi sosial-psixoloji portetinin əsas və daha çox müşahidə edilən cizgilərini müəyyən etməyə kömək etmiş olar.

## Biblioqrafiya


1. "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair" illik hesabatlar [Elektron mənbə]: https://www.insanalveri.gov.az/upload/Hesabat%20
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. «Hüquq ədəbiyyatı», Bakı, 2014.
3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Kommentariyası / h.e.d., prof. F.Y.Səməndərovun redaktəsi ilə. Bakı: Hüquq Yayın Evi, 2014.
4. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi. Bakı: Hüquq Yayın Evi, 2017.
5.Google"da işləyən azərbaycanlı: [Elektron mənbə]: https://news.day.az/ azerinews/1160032.html
6. Данные Международной организации труда / [Электронный ресурс]. Режим доступа: www.unmultimedia.org/radio/russian/detail/50091.html
7. Красинец Е.С., Кубишин Е.С., Тюрюканова Е.В. Нелегальная миграция в Россию. - М.: Изд-во "ACADEMIA", 2000.

8. Рязанцев С.В. Торговля людьми с целью трудовой эксплуатации и незаконная трудовая миграция в Российской Федерации: формы, тенденции, противодействие. Москва, 2013.

9. Рязанцев С.В. Трудовая миграция в странах СНГ и Балтии: тенденции, последствия, регулирование. – М.: Формула права, 2007.

10. Торговля людьми и легализация преступных доходов. Вопросы противодействия: научно-практическое пособие/ Под ред. О.П.Левченко. – М.: Изд-во "ЮНИТИ-ДАНА", 2009.

11. Уголовный кодекс Российской Федерации. М., Проспект, КноРус, 2015.

12. ILO Global Estimate of Forced Labour 2012: Results and Methodology, Geneva, 2012. [Internet resource]. Available at: www.ilo.org

13. Russia's Place in Global Human Trafficking. Exploitation of Labour in the Migrant Dependent Economy. International Trends. Journal of International Relations Theory and World Politics. 2015.